# Bahtiyar Vahapzade Yaratıcılığında Tarih

Vaqif MƏMMƏDOV*

ÖZ

20. yüzyıl Azerbaycan poeziyasının en seçkin temsilcilerinden sayılan Bahtiyar Vahapzade'nin çok yönlü yaratıcılığında tarih konusu da önemli yer bulmaktadır. İlk önce Azerbaycan halkının soykökü, menşeyi ile bağlı ayrıntılı düşünceleri ile ilgi çeken şair kendi yaratıcılığında halkın formalaşması ve teşekkül tarihi ile ilgili ilginç bilgiler ileri sürmüştür.

Azerbaycan halkının kahramanlık tarihi, özgürlük, bağımsızlık uğruna mücadelesi, Ermenilerin Azerbaycan ve Türk dünyasına karşı yaptıkları vahşetlerle bağlı bir çok eserler yazan Bahtiyar Vahapzade Sovyet döneminde bile, geçmiş Sovyet kuruluşunun iç yüzünü açığa çıkarıp ifşa olunması, bu kuruluşun sahtekârlıklarını, düzmeciliklerini yansıtılması ile bağlı eserler yazmıştır.

Bu makalede Bahtiyar Vahapzade'nin Azerbaycan tarihinin tüm aşamalarını kapsayan eserleri araştırılıyor.

*Anahtar Kelimeler:* Bahtiyar Vahapzade, heroism, Azerbaycan tarihi ile ilgili şiirler.

ABSTRACT

History in Bakhtiyar Vahabzadeh's Creativity

History plays an important role in the multi-dimensioned creativity of Bakhtiyar Vahabzadeh, one of the prominent representatives of the Azerbaijan poetry in the twentieth century. The poet first attracted attention with his detailed thoughts about the origins of the Azerbaijan people. Then he put forward interesting thoughts about the formation and development of the history of the people.

Bakhtiyar Vahabzadeh who wrote works about the heroic history of the Azerbaijan people, their struggle for freedom and independence, also wrote the atrocities Armenians did to Azerbaijan and the Turkish world, and produced works about the falsity of the past Soviet regime in order to clarify the real aims of the Soviet era. This paper deals with the analysis of the works of Bakhtiyar Vahabzadeh which cover various stages of Azerbaijani history.

*Key Words:* Bakhtiyar Vahapzade, heroism, poems about the history of Azerbaijan.

* Prof. Dr., Tarix elmləri namizədi, Naxçıvan Dövlət Universiteti, NAHÇİVAN, e-posta: vaqif_memmedov@mail.ru

Erdem
158
57
2010

XX. Əsr Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən olan xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığında bəşəriyyətin tərcümeyi-halı hesab olunan tarix, xalqın, millətin soy-kökünə poetik tarixi baxış, tarixi hadisələrə şair münasibəti, zamanın, tarixin sərt sınaqları və ibrət dərsləri mühüm mövzu kimi diqqəti cəlb edir. Xalq şairi B.Vahabzadə ilk növbədə mənsub olduğu Azərbaycan xalqının mənşəyi, soy-kökü haqqında çox maraqlı, poetik mülahizələr irəli sürür və tarixi reallıqlara söykənərək digər türkdilli xalqlar kimi, Azərbaycan xalqının da tarixinin Türk dünyası ilə bağlılığını bir daha təsdiqləyir. «Azərbaycan oğluyam» şeirində-

Azərbaycan oğluyam
Odu Allah sanmışam.
Anam torpaq,
Atam od,
Mən oddan yaranmışam (1, s.32) -

deyən şair xalqın tarixinin heç də rahat, rəvan, ağrı-acısız keçmədiyini, cəngavər oğulların həmin tarixi zamanın qazanında dağ ola-ola «Cəngi» sədaları altında, at belində, döyüşlərdə yazdığını dünyaya bəyan edir:

Azərbaycan oğluyam
At belində doğuldum,
Zamanın qazanında
Yana-yana dağ oldum.
Mənim damarlarımda
Gur sellər çağlamışdır.
Anam «Cəngi»lər üstə
Məni qundaqlamışdır (yenə orada, səh. 32).

Xalqın, millətin mənşəyi haqqında ortaya atılmış bir çox cəfəng fikirlərə, reallığa söykənməyən, elmi dəlillərə əsaslanmayan mülahizələrə isə Bəxtiyar Vahabzadənin sərt şair mövqeyi aşağıdakı kimidir:

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm özümdən hürkəm.
Sən kimsən, sən nəsən özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm! (1, s. 144)

Sovet rejimi dövründə dünyaya gəlib, yaradıcılığının böyük bir hissəsi sovet dövrünə düşən B.Vahabzadəyə qədər bəlkə də XX əsr Azərbaycan ədəbiyyatı tarixində sovet rejimi əleyhinə şeir yazan, həmin rejimin yaşadığı dövrdə bu rejimin mahiyyətini, iç üzünü açıb göstərən, ifşa edən ikinci bir sənətkar olmamışdır. Həm də bu ciddi siyasi məsələni şair o qədər adi və sadə dillə, o qədər incə nüansla mövzu obyektinə çevirirdi ki, şeir çoxlarının diqqətini cəlb etməsə belə, yenə şair öz sözünü deyir, məramını örtülü şəkildə olsa da şərh edirdi:

Kotanımı çox sürsəm də xama mən,
Yetişmədim bir müqəddəs kama mən.
Çox çalışdım, çox vuruşdum, amma mən
Olammadım Vətənimin ağası (2, s.55).

Məlum olduğu kimi, 15 respublikanı öz əsarətində saxlayan Sovet imperiyası özünü həmin respublikaların bütün yeraltı və yerüstü sərvətlərinin sahibi kimi aparır, bu respublikaların xalqları gecə-gündüz tər töküb çalışsalar da bütün sərvətlər Moskvaya daşınır, yaxud Moskvanın əli ilə dünya bazarına çıxarılırdı. Bu məsələyə heç kəs müdaxilə edib söz deməyə cəsarəti çatmayanda 30 yaşlı B.Vahabzadə «Pambıq» şeirində yazırdı:

Hər zülmə, cəfaya sinə gərmişik,
Xeyiri, qazancı yelə vermişik.
Səni biz əkmişik, biz becərmişik,
Yüklənib gedirsən bəs hara, pambıq? (2, s.27).

Xalqın mənəvi dəyərlərinə, dinə, inanclara yasaq qoyulduğu bir vaxtda, sovet rejiminin yaradıcısı sayılan Leninin hamının pənahı, ümid yeri, allahı kimi, qələmə verildiyi, sovet qılıncının hər tərəfinin kəsdiyi bir vaxtda bu saxta ideyanın çürüklüyünü ifşa etmək cəsarəti də B.Vahabzadəyə qismət oldu:

Nə yönüm görünür, nə də sahilim,
Mənə zülm edənə pənahım dedim.
Məni yaradana mənim qatilim,
Amma qatilimə allahım dedim (2, s.18).

Sovet rejiminin ən böyük zərbələrindən biri də o oldu ki, bu imperiyaya zorla qatılmış bütün xalqlar kimi, Azərbaycanın da əsl tarixi danılır, bunun əvəzində yazılan saxta, uydurma tarixlə millət öz soy-kökündən, keçmişindən, mənəvi dəyərlərindən uzaqlaşdırılır, həqiqəti əks etdirən tarix kitabları isə gizlədilir, B.Vahabzadənin təbirincə desək bu kitabların üstündə hörümçək (sovet ideologiyası) tor bağlayırdı:

Tariximiz danıldı,
Uydurma tarix ilə kimliyimiz anıldı-
Öz kökünü bilməyən gözü küllü bu millət
Zamanın yollarında hər addımda yanıldı.
Uydurma tarix bizi anamızdan ayırıb,
Yad anadan alınmış bələkdə qundaqladı,
Təməlimiz laxladı.
Bu xalqın tarixini düz bildirən, düz yazan
Tarix kitablarında hörümçək tor bağladı (1, s.234).

Azərbaycanı iki yerə parçalayan, 1813-cü ildə bağlanmış mənfur «Gülüstan» müqaviləsi 70 illik sovet rejimi dövründə də «Azərbaycanın Rusiyaya könüllü birləşməsi» kimi qələmə verilib, tarix kitablarına bu adla salınsa da, «Gülüstan» poemasında poeziyanın dili ilə əsl tarixi göstərən

B.Vahabzadənin başı bəlalar çəksə də, yenə öz əqidəsindən dönməyən şair haqqı deməkdən yorulmadı və 1963-cü ildə sovet diktəsi ilə «Gülüstan» müqaviləsinin 150 illiyi qeyd olunanda xalqın tarixi faciəsini belə ifadə etdi:

Tapdamaq olarmı haqqı bu qədər?
Yüz əlli ildir ki, soyurlar bizi.
Bu heç, bizə bayram elətdirirlər
Tarixdə ən böyük faciəmizi (3, s.50).

Elə buna görə də şair tarixin belə faciələrinə susub dözməyin, səs çıxarmamağın səbəbini, yenə zindana bənzəyən sovet rejiminin zülmündə, bu zülmün ədalət kimi qəbul edilməsində axtarırdı:

Zindanda doğulduq, o qədər zülmə alışdıq,
Məhbusu azad, zülmü ədalət bilirik biz (2, s.21).

Məlumdur ki, Azərbaycan tarixinin ən faciəli, qara səhifələrindən biri də ötən əsrin 30-cu illərinin sonunda baş verən repressiyalardır. Millətin ən ləyaqətli, say-seçmə oğullarının «xalq düşməni» adı altında amansızlıqla məhv edildiyi və sürgünə göndərildiyi bu tarixi faciə də B.Vahabzadə yaradıcılığında öz əksini tapmış, xalq yolunda candan keçməyə hazır olanlara «xalq düşməni» damğası vurulub onların məhv edilməsini tarixdə haqq adına haqqın yıxıb sürüdülməsi kimi dəyərləndirmişdir:

Bizə başqa göz verdilər,
Baxıb saxta gözümüzlə
Hamar gördük çuxuru biz.
Saray bildik axuru biz.
Görəmmədik qat bağlayan
paxırı biz.
Bu paxırı görənləri,
Xalq yolunda candan keçən ərənləri
«Xalq düşməni» damğasıyla
Ləkələyib məhv etdilər.
Haqq adına haqqı yıxıb sürütdülər (2 s. 10).

Nəticədə isə yarandığı gündən xalqa neçə-neçə tələ quran sovet rejimi xalqın dostlarını «xalq düşməni» adı ilə məhv etdi:

Xalqa neçə-neçə tələ qurdular,
Başımız tilova keçəndən bəri.

Qəsdən, bilə-bilə adlandırdılar-
Xalqın dostlarını-«xalq düşmənləri» (2. s. 50).

Repressiya mövzusunda yazdığı digər çox düşündürücü və adsız bir şeirində B.Vahabzadə çox məharətlə tarixin başqa bir qaranlıq, qapalı səhifəsinə də işıq salmağı bacarmışdır. Sovet rejimində siyasi repressiyaların meydan suladığı Stalin dövrünü xarakterizə etmək məqsədi güdən şair çox incə bir məqama toxunmaqla həmin dövrdə Sovet imperiyasını idarə edən, Kremlin əsas fiqurla-

rından sayılan Kaqanoviç, Molotov, Kalinin kimi şəxslərin tərcümeyi-halında olan tarixi faktları göstərməklə, onları yüz il əvvəl yaşamış dekabristlərlə müqayisə etmiş, həm də həmin dövrdə o çürük imperiyanı idarə edənlərin, dəhşətli repressiyaları törədənlərin hansı şəxsiyyət sahibi olduqlarını, onların mənəviyyatının nədən ibarət olduğunu göstərib ifşa etmişdir:

Kaqanoviç sədaqətlə
qulluq etdi rəhbərə.
Hər sözünə «bəli» dedi yüz kərə.
Arvadını tutdular.
Arxasınca
Molotovun arvadını tutdular,
Kalininin arvadını tutdular
Ərlər susdu, dinmədi,
Bu zilləti uddular.
Rusiyanın tarixini
yada saldım bu dəmdə.
Dekabristlər gəldi, durdu gözümdə.
Onlar da tutuldular.
Haqsız məhkum oldular.
Qadınları birbəbir
Ərlərinin arxasınca getdilər.
O dövranı bu dövranla
tutuşdurdum, bilmədim,
Kişi kimdir, qadın kim?... (2, s.90)

Bəxtiyar Vahabzadə keçmişi, dünənki tarixi yaxşı bilib obyektiv təhlilini düzgün verdiyi kimi, gələcəyi də görüb hadisələri qabaqlamağı bacaran, real mülahizələr yürüdən şairlərdən idi. Şairin, dünyaya meydan oxuyan sovet imperiyasının sabahına inamsızlığı, bu quruluşun dağılıb yerlə yeksan olacağına, dənəsinin, zərrəsinin də qalmayacağına 20 il əvvəl verdiyi işarəti bu şeir təsdiqləyir:

Ac olsaq da «toxuq»-dedik.
Biz ucadan «bəli» deyə çox bağırdıq,
Qəlbimizdə «yox-yox!»-dedik.
Toz-torpağı yel sovurar,
Dənəsi də belə qalmaz.
Vallah, billah, belə qalmaz,
Belə qalmaz! (1, s.237).

Bəli, belə qalmadı, şairin öncəgörümü özünü doğrultdu və sovet rejimi dağıldı.

Yaradıcılığı boyu şeirlərindən tarix mövzusu qırmızı xətt kimi keçən Bəxtiyar Vahabzadə demək olar ki, Azərbaycan tarixinin bütün önəmli hadisələrinə

münasibət bildirmiş, şeirlərində bu mövzuya geniş yer ayırmış və tarixi bütün çalarları ilə əks etdirən yaddaqalan poeziya nümunələri yaratmışdır. Şairi bu mövzularda yazmağa sövq edən səbəbi isə xalq şairi Zəlimxan Yaqub şairin 20 il əvvəl çap olunan «Nağıl-həyat» kitabına yazdığı ön sözdə aşağıdakı kimi ifadə etmişdir:

> «Zaman insanın başına nə oyunlar açarmış. Sarsıntılar, büdrəmələr, çaşqınlıqlar, tutatut günləri, repressiya illərinin ağır nəticələri, əvəzsiz itkilər, böyük şəxsiyyətlərin təhqir edilməsi, xalqa dost olanların «xalq düşməni» damğası, sağ ikən ölməyin, var ikən yox olmağın ağrı-acısı, daha nələr, nələr... xalqı nə günə qoyur, şairi hansı mövzulara gətirib çıxarırmış...» (2, s.4).

Həqiqətən bu sadalanan amillər B.Vahabzadəni dərindən düşündürmüş, narahat etmiş, bu mövzularda yaddaqalan, uzunömürlü poeziya nümunələri yaratmağa sövq etmişdir.

Bu mövzuların da hamısında tarix yaşayır, tarix əks olunur. Tarix təmtəraqa, qızıl saraylarda verilən fərmanlara məhəl qoymur, yalnız zamanın süzgəcindən keçəndən sonra öz yerini tutur, kimin haqlı, kimin haqsız olduğu bilinir. Böyük qırğız yazıçısı Çingiz Aytmatov Bəxtiyar Vahabzadənin «Topqapı sarayı» şeirindən

Sultanlar milləti qorxuda bildi,
Doğru danışanı asdılar dardan.
Qızıl saraylarda fərman verildi,
Tarix gəlib keçdi ac komalardan-

bəndini misal göstərərək qeyd edir ki, «Bəxtiyar Vahabzadə öz əsərlərində tarixi müasirlik qədər yaşada bilir, tarixi bu günün gözüylə mühakimə edir, bizi inandırır ki, bunun bilavasitə ona və müasirlərə dəxli var» (1, s.7).

Ç.Aytmatovun qeyd etdiyi həmin mühakimə həm də B.Vahabzadə yaradıcılığında elə dəqiq, elə əyani faktlarla sübuta çatdırılır ki, kimsənin şübhə etməsinə yer qalmır. Sanki B.Vahabzadə tarixi mövzuda yazdığı şeirlərlə insanlara tarix dərsi keçir, tarixi gerçəkliklərə oxucunu elə inandırır ki, oxucu tarixin axarından qaçmağın, yaxa qurtarmağın mümkünsüzlüyünü bir daha yəqin edir.

Vaxtilə 1941-1945-ci illər müharibəsi zamanı nəinki Avropaya, hətta dünyaya meydan oxuyan Hitler Almaniyasına diz çökdürüb onu məğlub edən Rusiyanın bu gün Almaniyadan yardım istəməsini B.Vahabzadə aşağıdakı kimi təsvir edir:

Qaranın üzündə bəzən ağ ləkə!
Vaxtın ələyində hər şey ələndi.
Qəribə aləmdir, qalib bir ölkə
Məğlub etdiyinə əl açır indi (1, s.127).

Bəxtiyar Vahabzadə yaradıcılığında təkcə Azərbaycan tarixi deyil, Türk dünyasının tarixi, onun keçdiyi yol əks olunur və bir çox örnək cəhətləri göstərilir. Ana haqqında çox şeirlər yazılsa da B.Vahabzadə «Atatürkün anası» şeirinə çox mühüm tarixi məna verərək qeyd edir ki, adi, sadə bir insan olan bu ana ona görə müqəddəsdir ki, bu böyük millətə Ata bəxş etmişdir:

Atatürkün anası!
Adi bir insan, bir ana.
Zaman ötdükcə də
Minnətdar olur
hər kəs ona;
Bir böyük millətə bir gün
Ata doğmuş o ana! (2, s.75)

B.Vahabzadənin böyük Füzulinin heykəlinə baxarkən onun üzündəki hüznü, pərişanlığı görüb düşündükləri, türk millətinin ağrı-acılarını, qəm-qüssəsini yada salması da xeyli düşündürücüdür:

O, sakit görkəmiylə
Qaya kimi dayanıb,
Dərya kimi çağlayır.
Böyük türk millətinin
Dünəninə güvənir,
Bu gününə ağlayır (2, s.49).

Şübhəsiz ki, bu şeir parçasında böyük Füzuli fonunda türk millətinin bu günkü taleyindən B.Vahabzadənin özünün narahatlığı ifadə olunur ki, həmin narahatlığın içərisində də böyük Türk dünyasının qüdrətini gözü götürməyənlərin məkrli niyyətləri, Türkiyədə müntəzəm narahatlıqlar doğuran terror təhlükəsi, müxtəlif ölkələrdə ermənilər tərəfindən irəli sürülən qondarma «soyqırım» iddiaları və s. əks olunur.

Yeri gəlmişkən, tarixin bu bəlasına da münasibət bildirən B.Vahabzadə, türklərə qarşı uydurma soyqırım iddiası ilə hər dona girən ermənilərin törətdiyi vəhşiliyi unudan, onlara hələ də güzəştə getmək istəyənləri yaddaşsızlıqda, unutqanlıqda məzəmmət edib tarixin gözünə dik baxmağa, düzü-düz, əyrini-əyri deməyə çağırır:

Erməni zülmündən yüz ildən bəri
Daşdan-daşa dəydi bu xalqın başı.
Unutdu çəkdiyi müsibətləri,
Niyə oğurlandı onun yaddaşı! (1, s.223).

Elə 1990-cı il yanvarın 20-də Bakıda törədilən qanlı faciənin bir səbəbi də bəlkə də həmin unutqanlığın, xain ermənilərə olan inamın nəticəsi idi ki, Bakıda qan su yerinə axdı. Bəxtiyar Vahabzadə bu faciəli günün də bir tarix dərsi olduğunu qeyd etməklə o ağır sınaqda xalqın yenidən özünə qayıtdığını, min illik şücaət tarixinin təkrar olunduğunu diqqətə çatdırır:

O şənbə gecəsi ölüb-dirildik,
Şərəf papaq oldu, başlara qondu.
O qətl gecəsi xalqın min illik
Şücəat tarixi təkrar olundu (3, səh. 87).

Şeirlərinin böyük əksəriyyətində tarixi mövzulara müraciət edib yaddaqalan poeziya nümunələri yaradan, yaratdığı əsərlərlə özü də bir növ xalqın tarixinə çevrilən B.Vahabzadə müxtəlif illərdə yazdığı «Gülüstan» «Şəbi-hicran», «İstiqlal», «Ağlar güləyən», «Dörd yüz on altı», «Muğam», «Şəhidlər» və digər poemalarında (4) bir sıra pyeslərində də tarixi mövzulara toxunmuş, bu mövzuda çox gərəkli sənət nümunələri yaratmışdır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

Bəxtiyar Vahabzadə, *Seçilmiş əsərləri*. 2 cilddə, I cild, Bakı, Öndər nəşriyyat, 2004.
Bəxtiyar Vahabzadə, *Nağıl-həyat*, Bakı, Yazıçı nəşriyyatı, 1991.
Bəxtiyar Vahabzadə, *Seçilmiş əsərləri*, 2 cilddə, II cild, Bakı, Öndər nəşriyyat, 2004.
Bəxtiyar Vahabzadə, *Seçilmiş əsərləri*, 2 cilddə, II cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1975.
Bəxtiyar Vahabzadə, *Hər çiçəkdən bir ləçək*, Bakı, Yazıçı nəşriyyatı, 1982.